# Adı, özü, sözü...



Adı Maarif, özü arif, sözü aqilanə, xisləti fazilanə, söhbəti şairanə olan bir adam... Adının mənası bəlli, özünün siması məlum, sözünün dəyəri aşkar-yəni Maarif Yusif oğlu Xalıqov.

Çoxdan tanıyıram onu. Aspirant olduğu illərdən tanımışam Maarif Yusifoğlunu (1975-1978). Dissertasiya işini vaxtlı-vaxtında bitirdi Maarif. Sovet dövrü idi. Maarif də artıq ixtisaslı kadr idi. Yazdığı dissertasiya işi də sanki bu tarix elmi sahəsində ixtisaslaşmış və tarixçi-mütəxəssis olmuş gənc bir alimin ixtisasına uyğun idi: "Azərbaycan SSR-də kənd təsərrüfatı üçün ixtisaslı kadrların hazırlanması!". Nəhayət, 1981-ci il. Uğurlu müdafiə. İxtisaslı kadr olan Maarifi bir qədər sonra yüksək vəzifəyə çəkdilər. Baş laborant, elmi işçi, Bakı və Şamaxıdakı təhsil ocaqlarında 12 il işləmiş bu gənc kadrı birdən-birə məsul bir vəzifəyə dəvət etdilər. Azərbaycan Respublikasının Prezidentinin İcra Aparatında məmur (1993-2000). Sonra yenə müəllimlik fəaliyyəti (2000-2005). Amma kitab və məqalələr yazmağı da unutmadı Maarif. Hətta 2019-ci ildəAzərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə "Bəzz qalası" adlı bir Foto-Albom da hazırladı Maarif Yusifoğlu (2019). Bir il əvvəl (2018) "Ömrün ağlı-qaralı zolaqları" adlı tarixi-etnoqrafik-sənədli povest də yazıb oxucu mütaliəsinə təqdim etdi Maarif Xaliqov.

Bəzz qalası!.. Bir vaxtlar Azərbaycanın savaş və həzz qalası olan Bəzz qalasının tarixi bərk çəkdi özünə Maarifi. İranda dəfələrlə oldu. Onu özünə çəkən Bəzz qalasının keçmişini və indisini əks etdirən çoxlu şəkillər çəkdi bu təəssübkeş və yorulmaz "səyyah".

Tez-tez Ərdəbilə gedir Maarif. Ərdəbil ziyalıları, əsasən şairləri həmişə gözləyir onu.

Keçən il yanıma gəldi. İki kitab gətirdi mənə. Şair Qartalın Şahinə göndərdiyi iki kitab. Müəllifin tam adı: Rəhim Əsədullahi Səreyn Dərviş Qartal. Oxudum. Hətta bir neçə şeir də həsr etdim şair Qartala, çünki şair Qartal şair Şahini öz mövzun şerləri ilə sevindirmişdi. Aramızda müşairə yaradı:

"Olacaq şerimi məna mən öləndən sonra,
Deyəcək adımı dünya mən öləndən sonra"
Qartal Rəhim

"Qəzəlimdə hələ gizlin neçə məna vardır,
Atılar qətlimə imza mən öləndən sonra"
Şahin Fazil

ı :
"Tökmərəm hər ətəgə şerimi, el şairiyəm,
Tutiyi -təbimə ehsas ilə şəkkər gəzirəm"
Qartal Rəhim

"Harada Raci, hanı Seyyid Əzim Şirvani?
Şəhriyar axtarıram, Mirzə Ələkbər gəzirəm"
Şahin Fazil

ı :
"Qarışmış saçlarım tarix kimi toz-torpaq altında,
Daransın bu qara tellər, darağımdan xəbər yoxdur"
(Qartal Rəhim)

"Kiməm mən, kimdir əcdadım, nəsil dəftərçəmə baxdım,
Köküm qalmış Yer altında, budağımdan xəbər yoxdur"
(Şahin Fazil)

Bir qədər yuxarıda Maarifin "Ömrün ağlı-qaralı zolaqları" adlı kitabının adını çəkmişdim. Anaya həsr olunan və bədii dil ilə qələmə alınan bir qələm sahibinin povesti. Kitabın ilk cümlələrinə nəzər yetirirəm: Müstəqil araşdırıcı olan redaktor Çapar Fərid Kazımlı "Güllələnmiş gülüşlər" adlandırdığı ön sözdə yazır: "Tarix üzrə fəlsəfə doktoru Maarif Xalıqovu 25 ildən çoxdur ki, böyük vətəndaş, cəsarətli yurdsevən, millətimizin qeyrətli bir təəssübkeşi, böyük əqidə və dönməz inam sahibi, vəfalı dost və qardaş kimi tanıyır, onun geniş ürəyinə, müdrik düşüncələrinə həsəd aparmışam". Tamamilə doğru, olduqca düppədüz qiymət. Elə mən özüm də Maarifin indicə sadaladığım xislət və xasiyyətinə həsəd aparıram.

Povestin "Proloq yerinə və yaxud ritorik sualların məngələsində" adlandırdığı hissəsində Maarif "insan ömrünün müəyyən mərhələsinə çatanda istər-istəməz öz-özünə hesabat verməli olur" yazır. Nədir Maarifin hesabatının ilk sualları:

-Nə etmişəm? Nə etməliydim? Nəyi etməmişəm? Nələr etsəydim daha yaxşı olardı?"

Bu sualları cavablayanda Maarifin içindən gizli bir titrəyiş keçir, o an onun ürəyi vəcdə və təlatümə gəlir (Bax: Maarif Xalıqov. Ömrün ağlı-qaralı zolaqları, Bakı, 2018, səh.10.) Həmişə vəcd və təlatümlə gələcək kitablarını ərsəyə gətirəsən, dostum.

Kitabını oxudum və orada Savalan Qartal, şair Rəhim Səreyn Dərvişin iki şerini gördüm. Mən də bir şer yazmaq fikrinə düşdüm və sənə bir qəzəl ithaf etdim:

**Qəzəl**

Yarımçıq arzu-niyyətlər yarımçıq yox, tam olsun kaş,
Xudaya, hər çətin dərdə çox asan ənçam olsun kaş.

Gözəl torpaqlarım qalmış yad əllərdə, yad ellərdə,
O kafərlər kənar olsun, müzəffər-islam olsun kaş.

Qarabağ mülkü uğrunda savaşlar qoy davam etsin,
Igid kəslər zəfər çalsın, xəbislər bədnam olsun kaş.

Didərginlər didərginlik bəlasından xilas olsun,
Vətən mülkündə hər insan ömürlük aram olsun kaş.

Maarif Xalıqov, ey Xaliqə sadiq olan bəndə,
Həyatın elminə layiq işıqlansın, şam olsun kaş.

Mənim tək söz deyən çoxdur, sənin tək alim az gördüm,
Bu sözlər xudpəsənd alimlərə bərk ehyam olunun kaş.

Qələm səndə, qələm məndə, kəlam səndə, kəlam məndə,
Edək tərif qoça Şərqi, könüldə ilham olsun kaş.

Səhənd-Şahdağ, Bakı-Təbriz məhəbbətlə salam versin,
O sahildə, bu sahildə sərasər bayram olsun kaş.

Sənə sağlam həyat arzu edir Şahin, yaşa sağlam,
Maarif varsa arif var, Maarif sağlam olsun kaş!!!

**Sənə möhkəm can sağlığı arzulayan:**



***Şahin FAZİL***
***20 noyabr 2019***